**Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV**
Azərbaycan Kooperasiya Universitetinin dosenti,
iqtisad üzrə fəlsəfə doktoru

# POSTKONFLİKT ƏRAZİLƏRİN ÖLKƏ İQTİSADİYYATINA REİNTEQRASİYASI ÜZRƏ BEYNƏLXALQ YANAŞMA

**Xülasə**

*Tədqiqatın məqsədi* postkonflikt ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası üzrə beynəlxalq yanaşmanı araşdırmaqdır. Dünyanın müxtəlif ölkələrinin müharibədən sonrakı bərpa mexanizmləri və konsepsiyaları araşdırılmışdır. Beynəlxalq təşkilatların və maliyyə institutlarının postkonflikt ərazilərin bərpasında əldə etdiyi beynəlxalq təcrübənin konseptual əsasları və daha səmərəli fəaliyyət modelləri ümumiləşdirilmişdir. Dünya təcrübəsindən yanaşmaqla, Azərbaycanda postkonflikt ərazilərin inkişaf etdirilməsi və ölkə iqtisadiyyatına inteqrasiyası ilə bağlı təkliflər hazırlanmışdır.

*Tədqiqatın metodu* formasında – elmi abstraksiya, təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Eyni zamanda, dünyanın müxtəlif ölkələrində postkonflikt ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası ilə bağlı elmi yanaşmalar, müxtəlif tədqiqatçıların elmi əsərləri və fikirləri nəzərə alınmışdır.

*Tədqiqatın nəticələri* – İlk növbədə əldə edilən elmi-praktiki nəticələrdən Azərbaycanda Böük Qayıdışla bağlı olaraq I Dövlət Proqramının həyata keçirilməsi tədbirlərinin təkmilləşdirilməsi, öz doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərin yaşamağa başladığı regionun ölkənin digər əraziləri ilə reinteqrasiya tədbirlərinin görülməsində və fəaliyyət mexanizmlərinin hazırlanmasında istifadə imkanları ilə bağlıdır.

**Açar sözlər**: beynəlxalq təcrübə, dünya ölkələri, postkonflikt ərazilər, reinteqrasiya, Qarabağ, Şərqi Zəngəzur.

**UOT:** 332:338.012
**JEL:** R11; R12; R58
**DOI:** https://doi.org/ 10.54414/KPPO6801

## Giriş

Dünya tarixində və xüsusilə son 50-70 il ərzində müxtəlif ölkələrdə vətəndaş konfliktləri, müharibələr baş vermişdir. Amma, XX-XXI əsrlərdə iki genişmiqyaslı və ağır faciələrə səbəb olan dünya müharibələri baş vermişdir. 10 milyonlarla insan həyatını itirmiş, ərazilər dağıdılmış, yerlə yeksan edilmiş və mövcud infrastruktur obyektlərindən, zavod və fabriklərdən, xüsusilə təminat kommunikasiyalarından, yaşayış massivlərindən əsər əlamət qalmamışdır. Azərbaycan da XX əsrin sonunda belə bir fəlakətlə üzləşmişdir. Torpaqlarımızın 20 %-i erməni silahlı birləşmələri tərəfindən onların xarici havadarlarının fəal dəstəyi sayəsində işğal edilmişdir.

Yenicə müstəqilliyini bərpa edən Azərbaycan ciddi çətinliklərlə üzləşmişdir. 30 ilə yaxın torpaqlarımız işğal altında qalmış və milli sərvətlərimiz talan edilmişdir. İşğal olunan ərazilərdə boz yovşanlı səhralar yaranmış və bəzi xarici ekspertlər bu əraziləri 1945-ci ildə Xırosimaya atılan atom bombasının təsirindən yaranan mənzərəyə bənzətmişlər. Konkret olaraq viran qoyulmuş və tam dağıdılmış Ağdam şəhərini çox vaxt "ruhlar şəhəri" kimi təsvir etmişlər. Meşə fondumuz məhv edilmiş, su mənbələrimiz çirkləndirilmiş, minlərlə ictimai binalar, müəssisələr tam dağıdılmış, elektrik enerjisi, təbii qaz və su təchizatı kommunikasiyaları sıradan çıxarılmışdır.

2020-ci il sentyabrın 27-dən başlayaraq 44 gün ərzində davam edən II Qarabağ müharibəsində torpaqlarımız işğaldan azad edildi və dərhal quruculuq işlərinə başlanıldı. Artıq Postkonflikt ərazilərin bərpa edilməsinə konseptual yanaşmalar formalaşdırılmış, dövlət siyasəti hazırlanmış, müvafiq konsepsiyalar və strategiyalar, məqsədli dövlət proqramları qəbul edilmişdir. Yeni yaradılmış Qarbağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının

bərpa edilməsi və dirçəldilməsi tədbirləri Azərbaycan dövlətinin öz büdcə vəsaitləri hesabına həyata keçirilir.

Dünya təcrübəsində əslində bu analoqu olmayan bir hadisədir. Bu məqalədə bir məhz bir çox müharibələrdən və postkonflikt hadisələrdən sonra dünya dövlətlərinin bu məsələyə yanaşmalarına, formalaşmış beynəlxalq təcrübəyə və xüsusilə maliyyə mexanizmlərinə, onların hansı səviyyədə uğurlu olmasına, postkonflikt ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyasına dair tətbiq olunan mexanizmlərə, fəaliyyət strategiyalarına daha çox diqqət yetirəcəyik.

## Postmüharibə ərazilərinin ölkə iqtisadiyyatına reinteqrasiyasına dair dünya ölkələrinin və beynəlxalq təşkilatların yanaşmalarının təhlili

Müharibələr və vətəndaş konfliktləri dövlətin və millətin resurslarını dağıtmaqda, uzun illər ərzində formalaşdırılmış infrastrukturu məhv etməkdə, milli sərvətlərin talanmasında dərin izlər buraxmışdır. Məsələn, II Dünya Müharibəsindən sonra çoxlu sayda dünya ölkələri uzun illər ərzində öz ərazilərinin yenidən bərpa edilməsinə, ərazilərin dirçəldilməsinə, infrastrukturun yaradılmasına və demoqrafik proseslərin tənzimlənməsinə külli maliyyə mexanizmləri yönəltməyə məcbur olmuşlar. Daha çox diqqət çəkən bərpa proseslərindən biri parçalanmış Almaniyanın Qərb hissəsinin dirçəldilməsi olmuşdur. Bunun üçün ABŞ və müttəfiqləri Almaniya Federativ Respublikası yaratmağa nail olmuş və onun bərpa edilməsi üçün investisiyalar yatırmışlar. Məqsədli şəkildə Marşal planının reallaşdırılması güclü Almaniyanın yaradılmasına və sosializm sisteminə, ilk növbədə keçmiş SSRİ-yə qarşı mübarizədə fəal iştirakına yönəlmişdi [1, s. 358]. Əslində Almaniyanın sürətli dirçəldilməsi təmin olunmuşdur və təsadüfi deyildir ki, növbəti onilliklərdə bu ölkədə iqtisadi inkişaf prosesləri əhəmiyyətli səviyyədə sürətlənmiş, iqtisadiyyatın rəqabətli sahələri formalaşdırılmışdır. Xüsusilə, həmin dövrdə Almaniyada texnologiyaların inkişaf etdirilməsi, maşın və mexanizmlərin istehsalının təşkili, minik və yük maşınları üzrə brendlərin formalaşdırılması, transmilli şirkətlərin inkişafının stimullaşdırılması müsbət nəticələr vermişdir [2, s. 437]. Alman qlobal şirkətləri nəinki Avropada, dünyanın müxtəlif regionlarında layihələrdə və investisiyalar yönəltməkdə fəallıq göstərmişlər və bu proseslər hazırda da davam edir. Alman iqtisadiyyatının dəqiq və yüksək meyarlar əsasında inkişaf etməsində Almaniyanın həmin dövrdə parçalanması belə mane olmamışdır. Almaniya status baxımından zəifləsə də sonrakı illərdə güc taparaq inkişafını intensivləşdirə bilmişdir [3, s. 24]. Almaniya Fedrativ Respublikası sonrakı inkişaf proseslərində nəinki Qərbi Avropada, eləcə də dünyada iqtisadi güc mərkəzlərindən birinə çevrildi və SSRİ-nin zəifləməsindən məharətlə istifadə edərək 1990-cı illərin sonunda yenidən bir dövlət formasında birləşdi. Yəni, tarixi Alman divarları uçuruldu, Almaniyanın Şərq hissəsi ilə Qərb hissəsi birləşdi və hazırda Avropa Birliyinin əsas aparıcı ölkəsi kimi statusa malikdir [4, s. 251]. Eyni zamanda, iqtisadiyyatının ümumi gücü baxımından dünyada ilk sıralardadır. Qeyd edək ki, II Dünya Müharibəsindən sonrakı proseslərdə Qərbi Avropanın bərpasında ABŞ-ın rolu böyük olmuşdur. Amma, Yaponiyanın iqtisadiyyatının bərpa edilməsində əsas konsepsiyalar və fəaliyyət proqramları bu dövlətin özünə məxsus olmuşdur [5]. ABŞ tərəfindən Yaponiya ərazisinə atılan iki atom bombasının faciəvi təsirləri müasir dövrümüzə qədər davam etsə də, Yaponiya hökuməti iqtisadiyyatının aparıcı sahələrini nəinki bərpa edə bilmiş, bir çox sahələrdə, o cümlədən dəqiq dəzgahqayırmada, robototexnika sahəsində, elektronikada, xüsusi təyinatlı maşın və mexanizmlərin istehsalında, yüksək texnologiyaların işlənməsi və tətbiqində yüksək nailiyyətlər əldə edə bilmişlər. Bu uğurların əsas səbəblərindən biri də təhsil və elm sisteminin səmərəliliyi, əldə olunan elmi tədqiqatlarının nəticələrinin kommersiyalaşdırılmasında daha sərfəli fəaliyyət mexanizmlərinin tətbiq olunmasıdır. Yüksək texnologiyalar əsaslı texnopolislər Yapon iqtisadiyyatının şaxələndirilməsində və inkişafında önəmli funksiyaları yerinə yetirmişdir. Məhz bütün bunların nəticəsəində Yaponiya iqtisadiyyatı hazırda dünya iqtisadiyyatının önündə gedən ölkələr sırasındadır.

Daha bir təcrübə keçmiş SSRİ-nin bərpa edilməsi prosesləri ilə əlaqəlidir. Əvvəlcədən qeyd edək ki, bu nəhəng imperiyada bütün bərpa işləri mərkəzdən – Moskvadan idarə olunurdu. Bunun üçün 5 illik planlar müəyyənləşdirilirdi və bütün görüləcək işlər əvvəlcədən planlı şəkildə aparılırdı. Maliyyə resurslarının bölgüsü mərkəzdən daxil olurdu, müttəfiq respublikalarda isə bunların

icrası təmin edilirdi. Keçmiş SSRİ-nin 1710 şəhəri yer üzündən silinmişdi. Analoji vəziyyət 70 min kənd, 32 min sənaye müəssisələri, 65 min kilometr dəmiryolu xəttləri, 98 min kolxoz və 3 minə yaxın maşın traktor stansiyalarına da aid idi. Maraqlıdır ki, SSRİ-nin büdcəsi 1940-cı ildə 180 milyard rubl olduğu halda, müharibə nəticəsində ümumi itkilərin 2596 milyard rubl, o cümlədən iqtisadiyyatda birbaşa itki 679 milyard rubl təşkil etmişdir [6, s. 1]. Müharibədən bir neçə illər keçməsinə baxmayaraq əhalinin çox hissəsi hərbi paltarlardan istifadə edirdilər, yeni geyimlər almağa imkanalrı yox idi. Bir çox gündəlik məhsullar, ilk növbədə ərzaq məhsulları kartoçkalar vasitəsilə verilirdi. Ərzaq mağazaları boş idi. Yalnız 1946-cı ildən başalyaraq kolxoz bazarları açılmışdır və müəyyən mənada ərzaq məhsullarının satışı təşkil olunmuşdu. Elə həmin ildən sovet nümunəsi olan ipoteka mexanizmi yaradılmış və illik dərəcəsi 1 % olmaqla mənzil almaq üçün ipoteka formalaşdırılmışdır. Əhalinin məşğulluğunda kənd təsərrüfatı önəmli funksiyaları yerinə yetirmişdir. Həmin dövrdə kənd təsərrüfatının inkişafı əhalinin həyat səviyyəsinə müsbət təsir göstərmişdir. Sonrakı illərdə SSRİ-nin müxtəlif regionlarında sənaye şəhərlərinin yaradılması və inkişaf etdirilməsi təcrübəsini uğurlu hesab etmək mümkündür.

Qeyd edək ki, keçmiş SSRİ-də müharibədən sonrakı dövrdə sənayenin inkişaf etdirilməsi üçün xüsusi proqramlar hazırlanmış və həyata keçirilmişdir. Məsələn, Donbas, Leninqrad, Kiyev, Novoçerkassk, Lubna, Qomel şəhərlərində maşınqayırma müəssisələri sürətlə yaradılmışdır və qısa müddət ərzində 93 müəssisə fəaliyyətə başlamışdır. Paralel olaraq 1,4 milyon yaşayış evlərinin tikintisi və bərpa edilməsi təmine dilmişdir [7, s. 1]. 1946-cı ildə keçmiş SSRİ rəhbərliyi tərəfindən hədəf kimi müharibəyə qədər olan dövrlə müqayisədə sənaye istehsalının 48 % və kənd təsərrüfatının 27 % artırılması yaxın 5 il ərzində qarşıya plan kimi qoyulmuşdur. 5 illik planın yerinə yetirilməsi üçün 247 milyard rubl ayrılmışdır və əsas hədəf sənaye və kənd təsərrüfatı müəssisələrinin bərpa edilməsi, inkişafının təmin olunması idi. Eyni zamanda çoxlu sayda su-elektrik stansiyalarının bərpa olunmasına və yenilərinin tikilməsinə başlanılmışdır. Həmin dövrdə metallurgiya, kimya və neftkimya sahələrinin inkişafı da sürətli xarakter almışdır [8, s. 229]. Maraqlıdır ki, həmin dövrdə Azərbaycanda Sumqayıt sənaye mərkəzinin formalaşdırılması, kimya və neftkimya, qara metallurgiya və alüminium zavodlarının tikintisi həyata keçirilmişdir. Sumqayıtda keçmiş SSRİ-də iri müəssisələri sırasında olan Azərbaycan boru-brokat zavodu tikilmişdir. Bu müəssisəyə xammal isə Gürcüstanda tikilmiş Rustavi metallurgiya zavodundan daxil olurdu. Mingəçevrdə regionun ən iri su elektrik stansiyası istismara verilmişdir.

1947-ci ildə Aşqabadda (Türkmənistan) güclü dağıdıcı zəlzələnin baş verməsi bərpa işlərinə mənfi təsir göstərsə də, keçmiş SSRİ rəhbərliyi Qərbi Avropadan geri qalmamaq üçün bütün resurslarını səfərbər etməyə nail olmuşdur. 1947-ci ildə pul islahatları həyata keçirilmişdir. Bərpa işlərinin sürətləndirilməsində sovet ordusunun sıralarının 11,4 milyondan 2,9 milyon nəfərə qədər azaldılması, azad olunmuş dövlət maliyyə resurslarının bərpa işlərinə yönəldilməsinə imkan vermişdir. Eyni zamanda, təxris olunmuş hərbiçilərin mülki quruculıuq işlərində fəaliyyət göstərməsi və çalışması müharibədən sonrakı bərpa işlərinin sürətlərndirilməsinə təkan vermişdir [9, s. 163]. Artıq 1947-ci ildə sənaye sahəsi müharibədən əvvəlki səviyyəyə çata bildi, yəni bu vəzifənin öhdəsindən cəmisi 2 il ərzində gəlmək mümkün olmuşdur. Kənd təsərrüfatının müharibədən əvvəlki səviyyəyə çatması 1952-ci ildə mümkün olmuşdur. Nəqliyyat sektoru artıq 1948-ci ildə bərpa edilmişdir. Mənzil təsərrüfatının bərpası əsas etibarı ilə 1949-cu ildə başa çatdırılmışdır. Ümumilikdə keçmiş SSRİ üzrə xalq təsərrüfatının müharibədən əvvəlki səviyyəsi 1947-ci ildə təmin olunmuşdur [10, s. 51]. Dəmiryolu nəqliyyatının bərpasına daha çox resurslar yönəldilmişdir və nəticədə1948-ci ildə bu sahədə vəziyyət sabitləşmişdir. 1950-ci ildə daşınan yüklərin ümumi həcmi müharibədən əvvəlki dövrlə müqayisədə 45,1 % artmışdır. Ümumiyyətlə, həmin dövrdə avtomobil, dəniz və çay nəqliyyatları üzrə geniş miqyaslı bərpa işləri aparılmış və bu istiqamətlərdə infrastruktur bərpa edilmişdir. Müharibədən sonrakı dövrdə - 1946-1950-ci illərdə sənaye sahələrinə 17,2 milyard rubl əsaslı kapital yönəldilmişdir. Müharibədən sonrakı 10 il ərzində isə analoji kapital qoyuluşunun həcmi 62,6 rubl təşkil etmişdir. 1951-ci ildə əsas fondların dəyəri 509 milyard manat səviyyəsində qeydə alınmışdır, müqayisə üçün deyək ki, 1941-cü ildə bu rəqəm 366 milyard rubl olmuşdur.

Postkonflikt ərazilərin bərpa edilməsi baxımından nümunə ola biləcək modellərdən biri də Bosniya və Hersoqovinanın Balkan müharibəsindən sonra bərpa edilməsi mexanizmləri ola bilər. Belə ki, bu proseslərdə beynəlxalq maliyyə institutlarının iştirakı diqqət çəkir. Belə ki, müharibədə dağıdılmış bu kiçik Balkan ölkəsinin daxili imkanları və resursları məhdud olduğundan xariciköməyə ciddi ehtiyac duymuşdur [11]. Əsas mexanizm kimi isə beynəlxalq maliyyə institutlarının dəstəyi və uzun müddətə verilmiş kreditləri çıxış etmişdir. Bu bir tərəfdən vacib fəaliyyət mexanizmi kimi qiymətləndirilsə də, uzun illər ərzində xarici kapitaldan asılılığı saxlayır və ölkənin iqtisadi suverenliyinə təhdid kimi baxıla bilər. Təsadüfi deyildir ki, bir çox beynəlxalq təşkilatlar analoji maliyyə dəstəkləri göstərərkən, ölkələrdə islahatların aparılması və layihələrin həyata keçirilməsi üçün müəyyən şərtlər irəli sürülər.

Məlumdur ki, hazırda Rusiya-Ukrayna müharibəsi hələ də davam edir, insanlar ölür, şəhərlər, qəsəbələr və kəndlər dağılır, resurslar məhv olur, infrastruktur sıradan çıxır və s. Şübhəsiz bütün bunların bərpası lazım gələcəkdir və hər bir müharibə sonda sülhlə başa çatır. Ümid edirik ki, bu dağıdıcı müharibə də tezliklə sona yetəcəkdir. Artıq Ukraynanın bərpa edilməsi üzrə fikirlər səslənməkdə və modellər irəli sürülməkdədir. Maraqlıdır ki, Ukraynanın bərpa olunmasında Bosniya və Hersoqovina modelinin tətbiq olunacağını səsləndirənlər artmaqdadır. Belə ki, Avropa Birliyinin Ukraynanya təsiri xeyli dərinləşmişdir və aparıcı Avropa ölkələri Ukraynanı dəstəkləməkdə davam edirlər. Eyni zamanda, gələcəkdə Ukraynanın bərpa edilməsi proqramlarının indidən hazırlanmasına start verilmişdir. Amma məlumdur ki, bunun üçün bir sıra şərtlər vacib hesab olunur. İslahatların aparılması, bazar iqtisadiyyatının dərinləşdirilməsi, şəffaflığın yüksəldilməsi və Avropa İttifaqına inteqrasiyanın təmin edilməsi əsas şərtlər kimi göstərilir. Belə olduğu halda Avropa İttifaqının Ukrayna iqtisadiyyatının bərpa olunmasına vəsait ayırması planları daha intensiv baş tuta bilər [12].

### Azərbaycanda postkonflikt ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyasında beynəlxalq təcrübənin tətbiqi istiqamətləri

İkinci Dünya Müharibəsindən sonra Azərbaycan Respublikasının bərpa edilməsi planları keçmiş SSRİ-nin bu sahədə olan fəaliyyət planlarının tərkib hissəsi kimi baş vermişdir. Təəssüf ki, müharibədən dərhal sonra Azərbaycanın ərazilərinə göz dikən ermənistanın bəd niyyətləri yenidən baş qaldırmışdır və bununla bağlı cəhdlər göstərilmişdir. Ermənistanın ərazisində yaşayan Azərbaycanlı əhalinin böyük bir hissəsi Azərbaycanın Kür Araz ovalığına məcburi şəkildə köçürüldü. Azərbaycanda müharibədən sonrakı bərpa işləri sırasında əsasən texniki cəhətdən xeyli zəifləmiş müəssisələrin bərpa olunması, yeni sənaye müəssisələrinin tikilməsi, energetika sahəsinin inkişaf etdirilməsi diqqət çəkmişdir. Müharibədən sonrakı on il ərzində Azərbaycanda 108 nisbətən iri sənaye müəssisəsi istismara verildi və bu sahədə çalışanların sayı xeyli artdı. Mühəndis – texniki işçilərin hazırlanaraq istehsal sahələrinə göndərilməsinə xüsusi diqqət yetirilirdi **[13, s. 2].** O dövrdə Azərbaycan rəhbərliyinə qarşı milli zəmində təsirlər də güclü idi və respublika rəhbərliyinin fəaliyyətinə bunun təsiri qaçılmaz olmuşdur. 1946-1970-ci illər ərzində Azərbaycanda iqtisadiyyatın stukturu acınacaqlı vəziyyətdə idi. Ölkə iqtisadiyyatının strukturunun inkişaf etdirilməsi, əmək resurslarında səmərəli istifadə olunması təmin edilməmişdi. Mərkəzdən ayrılan vəsaitlər respublikada iqtisadi inkişafı sürətləndirmək iqtidarında deyildi. Uzaq Sibirdə yeni neft yataqlarının kəşf edilməsi və istismara verilməsi səbəbindən Moskva əsas vəsaiti bu istiqamətlərə yönəldirdi. Bir sözlə Bakı neftinə laqeyd münasibət yaranmışdı və Azərbaycanda neft sənayesinin inkişafına əsaslı vəsait qoyuluşu azaldılmışdı. Aqrar sahə isə böhran dövrünü yaşayırdı. Respublika ən az gəlirlərə malik müttəfiq respublikalar sırasına yuvarlanmışdı.

Bu proseslər yalnız 1970-1982-ci illərdə Ulu Öndər tərəfindən tənzimləndi və Azərbaycan bütün sahələrdə sürətli inkişaf yoluna qədəm qoydu. Qısa müddət ərzində iqtisadiyyatın strukturu təkmilləşdirildi. Həmin dövr ərzində məcmu ictimai məhsul 2,3 dəfə, sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı 2,2 dəfə, milli gəlir, 2,3 dəfə əsaslı, vəsait qoyuluşu isə 1,8 dəfə yüksəlimişdir. Respublikada 250 yeni sənaye müəssisəsi yaradılmışdır. Şəhər yerlərində 13,4 milyon kvadrat metr və kənd yerlərində isə 4,8 milyon kvadrat metr ya-

şayış evləri, təhsil və səhiyyə müəssisələri istismara verilmişdir. 65-dən çox dünya ölkəsinə 350 adda məhsul ixrac edilirdi. 1971-1985-ci illərdə Azərbaycanda 551 adda yeni maşın, avadanlıq və cihazların istehsalı təşkil edilmişdir.

Azərbaycan öz müstəqilliyini ikinci dəfə - keçmiş SSRİ-nin süqutundan sonra bərpa etməyə nail oldu. Lakin erməni silahlı birləşmələri xarici havadarlarının fəal köməkləri nəticəsində torpaqlarımızın 20 %-ni işğal etdilər və 30 il ərzində işğalçılıq siyasətlərini davam etdirərək şəhər və qəsəbələrimizi, kəndlərimizi, meşə və torpaq fondumuzu, qədim abidələrimizi yerlə yeksan etdilər və dağıtdılar. Hazırda bu postkonflikt ərazilərin bərpa prosesləri gedir [14].

Beynəlxalq təcrübədən fərqli olaraq Azərbaycanda postkonflikt ərazilərin bərpa olunması əsasən müstəqil Azərbaycan dövlətinin özünün hazırladığı və reallaşdırdığı proqramlar və layihələr əsasında həyata keçirilir [15]. Əlavə edək ki, AR Prezidentinin 16 noyabr 2022-ci il arixli Sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq olunmuşdur. Bu məqsədli Dövlət Proqarmının başlıca hədəfləri sırasında ilk növbədə müasir, sosial və istehsal, xidmət infrastrukturunun yaradılması, işğaldan azad olunmuş ərazilərin inkişaf modelinin təşkil edilməsi və reallaşdırılması, postkonflikt ərazilərdə təhlükəsizliyin təmin olunması, yeni yaradılmış iqtisadi rayonlarda idarəçilik mexanizmlərinin təkmilləşdirilməsi, keçmiş məcburi köçkünlərin daha intensiv şəkildə öz doğma yurdlarına qayıtması üçün yaşayış məntəqələrinin tikintisi, əhalinin dayanıqlı məskunlaşmasının təmin olunması və iş yerlərinin yaradılması, sosial və istehsal infrastrukturunun inkişaf etdirilməsi daxildir. Bu proqrama görə 2026-cı ilədək 34500 ailə doğma yurdlarına qayıdacaq və onların layiqli yaşayışı təmin ediləcəkdir. Ümumilikdə həmin proqramda ilkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 8 şəhər, 8 qəsəbə və 84 kəndin bərpa edilməsi nəzərə alınıb. 2026-cı ilədək 140 min keçmiş köçkünün öz doğma yurdlarına qaytarılması təmin ediləcəkdir. Bu məqsədlərlə dövlət büdcəsindən Qarbağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq işlərinə 2021-2023-cü illərdə 12 min manat vəsait yönəldilmişdir. 2024-cü ilin dövlət büdcəsində ayrılan vəsaitlərin həcmi 4 milyard manat təşkil etmişdir və 2025-ci ildə yenə 4 milyard manat ayrılmışdır. Ümumilikdə 2022-2026-cı illərdə Böyük Qayıdışla bağlı I Dövlət Proqramının icra edilməsinə 30,5 milyard manat vəsait yönəldiləcəkdir [16].

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında geniş miqyaslı layihələr icra olunur [17]. Ağdam şəhərinin mərkəzi hissəsi tikilir, Sarıcallar və Kəngərli kəndlərinə keçmiş məcburi köçkünlərin məskunlaşmasına başlanılıb. Füzuli şəhərinin mərkəzi hissəsi sürətlə məskunlaşdırılır. Dövlətyarlı kəndində 1500-ə yaxın ailənin yerləşdirilməsi üçün infrastruktur yaradılır. Xocalıya məskinlaşma başlayıb. Şuşa şəhəri də intensiv olaraq öz keçmiş sakinlərini qəbul etməkdədir və burada geniş şəbəkəyə malik xidmət sektoru yaradılır, sosial obyektlər tikilir. Füzuli və Zəngilan Beynəlxalq Hava Limanları istismara verilmişdir. Bərdə - Ağdam Dəmir yol xətti fəaliyyətə başlamışdır və Horadiz - Ağbənd dəmiryolu xəttinin tikintisi həyata keçirilir. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu – zəfər yolu tezliklə istismara hazır olacaqdır. Laçın Beynəlxalq Hava Limanında ilk sınaq uçuşları reallaşdırılmışdır. Zəngəzur iqtisadi rayonunda bir sıra mürəkkəb yol layihələri icra olunur, burada 33 tunel inşa olunacaqdır və onların ümumi uzunluğu 50 kilometrdən çox təşkil edəcəkdir, həmçinin 90-a yaxın yeni körpünün tikintisi başa çatdırılacaqdır. Postkonflikt ərazilərdə elektrik yarımstansiyaları istismara verilir, elektrik verilişi xəttləri şəbəkəsi yaradılıb, su təminatı gücləndirilir və kiçik su elektrik stansiyaları bərpa olunur. Ağdam sənaye Parkında rezidentlərinin sayı artmaqdadır və Cəbrayılda təşkil olunan “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı da sürətlə inkişaf etməkdədir. Postkonflikt ərazilərdə fəaliyyət göstərən rezidentlər 10 il müddətinə vergilərdən azad edilmişdir. Həmçinin qeyri-dövlət sektorunda sığorta edənlər tərəfindən ödənilmiş məcburi dövlət sığorta haqqının subsidiyalaşdırılması 2023-2025-ci illərdə 100 % nəzərdə tutulmuşdur. İşğaldan azad olunmuş ərazilərdə kommunal xidmətlər üzrə ölkədaxili tariflərə nisbətdə 20 % güzəştlər tətbiq edilmişdir.

**Nəticə**

Beləliklə, qeyd edə bilərik ki, Azərbaycan özünün müstəqil dövlət siyasətinə uyğun şəkildə postkonflikt ərazilərin bərpa edilməsində də özünəməxsus fəaliyyət modeli formalaşdırmışdır:

– Yaxın perspektivdə ölkəmizdə postkonflikt ərazilərin daha intensiv bərpa edilməsi prosesinə keçəcəyi gözlənilir;

– Perspektiv vəd edən fəaliyyət istiqamətlərindən biri dövlət – özəl sektor əməkdaşlığının genişləndirilməsi və postkonflikt ərazilərin bərpasında daha çox özəl sektor subyektlərinin iştirakının stimullaşdırılmasıdır.

– Digər vacib bir məsələ - dost və strateji əməkdaşlıq münasibətləri formalaşdırılan ölkələrin şirkətlərinin postkonflikt ərazilərin bərpa edilməsinə cəlb edilməsinin genişləndirilməsi və investisiyaların yatırılmasından ibarətdir. Artıq bir sıra dost ölkələr bu istiqamətdə əməli fəaliyyət ortaya qoyublar, ancaq bu proseslərin daha da fəallaşdırılmasına ehtiyac vardır və s.

**Ədəbiyyat siyahısı:**

1. Ahonen, P. (2017). Germany and the Aftermath of the Second World War. Journal of Modern History, 89(2), 355-387. https://doi.org/10.1086/691523.

2. Boltho, A (2001), "Reconstruction after two world wars: Why a difference", Journal of European Economic History 30: -pp 429–458.

3. Гузикова, М.О. Трансформации германского суверенитета после второй мировой войны. – с. 19-26 https://elar.urfu.ru/bitstream/10995/122207/1/5-7525-1633-1_005.pdf.

4. Vonyó, T (2017), "War and socialism: Why Eastern Europe fell behind between 1950 and 1989", Economic History Review 70: - pp. 248–274.

5. Аладашвили, Б. Экономика военного времени: исторический опыт и сегодняшняя реальность. https://www.defencesciencereview.com.pl/pdf-119533-48275?filename=48275.pdf.

6. Как восстанавливали СССР после Великой Отечественной войны. 29.08.2022. https://xn--90aidffe5bdebug.xn--p1ai.

7. Сергеева, С.В. Послевоенное восстановление страны. https://foxford.ru/wiki/istoriya/poslevoennoe-vosstanovlenie-strany?srsltid=AfmBOoq-TxvVgY5wZOrql6nBrb-g7x3nZj9FCbvfG4WvfD3fbQ0863h2&utm_referrer=https%3A%2F%2Fwww.google.com%2F.

8. Литвиновский, И.А. Восстановление народного хозяйства СССР после Великой Отечественной войны / И.А. Литвиновский // Российские и славянские исследования: Сб. науч. статей. Вып. 1 / Редкол.: О.А. Яновский (отв. ред.) и др. – Мн.: БГУ, 2004. – С. 228–232.

9. Айдинов, Х.Т. Восстановление экономики СССР в послевоенный период (1945-1948) // Власть. 2016. №10. – с. 160-165. URL: https://cyberleninka.ru/article/n/vosstanovlenie-ekonomiki-sssr-v-poslevoennyy-period-1945-1948.

10. Фомин, Д.А. Послевоенная экономика СССР: факторы восстановления. Terra Economicus. 2023, 21(1), – c. 47–60. DOI: 10.18522/2073-6606-2023-21-1-47-60.

11. Послевоенное восстановление Боснии и Герцеговины подходит к завершению. https://news.un.org/ru/story/2006/04/1085881.

12. Весна, Б.Д. Уроки послевоенного восстановления. Чему Украина и ЕС могут научиться на примере тридцатилетнего восстановления Боснии и Герцеговины. 30.07.2024. https://www.ipg-journal.io/ru/regiony/evropa/uroki-poslevoennogo-vosstanovlenija-2213.

13. Ömərov, V. Azərbaycan SSR II Dünya müharibəsindən sonrakı illərdə (1946-1950-ci illər). https://sesqazeti.az/news/mia/322944.html.

14. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана// «Вопросы Истории» (Москва), № 6, 2022. – с.148-155

15. Əliyev Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. "Geostrategiya" jurnalı, sentyabr, 2021, №4(64), s.67-72.

16. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı". AR Prezidentinin 16 noyabr 2022-ci il arixli Sərəncamı ilə təsdiq olunmuşdur.

17. Алиев, Ш.Т., Меликова, Л.А. Актуальные проблемы и объективные реалии мирового опыта в восстановлении освобожденных от оккупации территорий/ IX Международная Научно-Практическая Конференция «Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков ».– Россия, г. Москва. 28 марта 2022 года- С.277-286

**Эльдениз Мазахир оглы МАГЕРРАМОВ**
*Доктор философии по экономике,*
*доцент Азербайджанского Университета Кооперации,*

## МЕЖДУНАРОДНЫЙ ПОДХОД К РЕИНТЕГРАЦИИ ПОСТКОНФЛИКТНЫХ ТЕРРИТОРИЙ В НАЦИОНАЛЬНУЮ ЭКОНОМИКУ

### Резюме

***Целью исследования*** является изучение международного подхода к реинтеграции сельскохозяйственного сектора в национальную экономику в постконфликтных регионах. Рассмотрены механизмы и концепции послевоенного восстановления различных стран мира. Обобщены концептуальные основы и наиболее эффективные модели действий международных организаций и финансовых институтов по восстановлению постконфликтных территорий. На основе мирового опыта подготовлены предложения по развитию аграрного сектора на постконфликтных территориях Азербайджана и его интеграции в экономику страны.

*Методом исследования* являлись научная абстракция, анализ, синтез, сравнение и обобщение. При этом учитывались научные подходы, научные труды и идеи различных исследователей относительно реинтеграции постконфликтных территорий в национальную экономику в различных странах мира.

*Результаты исследования* – Полученные научные и практические результаты, может использовано прежде всего, в совершенствование мер по реализации Первой Государственной программы по Большому Возвращению в Азербайджане, возможностью их использования при реализации реинтеграционных мероприятий и разработке механизмов действий для региона.

**Ключевые слова:** международный опыт, страны мира, постконфликтные территории, реинтеграция, Карабах, Восточный Зангезур.

**Eldaniz Mazahir MAHARRAMOV**
*PhD in economics,*
*Associate professor of Azerbaijan University of Cooperation,*

## AN INTERNATIONAL APPROACH TO THE REINTEGRATION OF POST-CONFLICT TERRITORIES INTO THE NATIONAL ECONOMY

### Summary

*The aim of the study* is to examine the international approach to the reintegration of post-conflict areas into the country's economy. The post-war recovery mechanisms and concepts of different countries of the world have been examined. The conceptual foundations of the international experience gained by international organizations and financial institutions in the recovery of post-conflict areas and more efficient models of activity have been summarized. Drawing on world experience, proposals have been made regarding the development of post-conflict areas in Azerbaijan and their integration into the country's economy.

*The research method* was scientific abstraction, analysis, synthesis, comparison and generalization. At the same time, scientific approaches, scientific works and ideas of various researchers related to the reintegration of post-conflict territories into the national economy in different countries of the world were taken into account.

*Results of the study* - The obtained scientific and practical results are primarily related to the improvement of measures for the implementation of the First State Program on the Great Return in Azerbaijan, the possibility of their use in the implementation of reintegration activities and the development of action mechanisms for the region where former internally displaced persons who returned to their native lands began to live in other territories of the country.

***Key words:*** international experience, countries of the world, post-conflict territories, reintegration, Karabakh, East Zangezur.